# İordaniya mediasında Azərbaycanın qonaqpərvərlik ənənələri barədə məqalələr dərc olunub

**Azərbaycanda səfərdə olmuş iordaniyalı jurnalist Nidal Zubeydi öz təəssüratlarını "Jordan Daily" qəzetində yayımlanan məqalələrində oxucularla bölüşüb.**







Məqalələrində o, xalqımızın qonaqpərvərlik ənənələri, Azərbaycanın şəhərsalma təcrübəsi və "Sea Breeze" layihəsi barədə ətraflı məlumat verir.

AZƏRTAC xəbər verir ki, N.Zubeydi "Azərbaycanda kiçik anlar və böyük təəssüratlar" adlı məqaləsində ölkəmizdəki kiçik anların insanlarda necə böyük təəssüratlar yaratdığını vurğulayır. Yazıda Azərbaycana səfər edən turistlərin yaddaşlarında qalan unudulmaz təcrübələrindən bəhs edilir. Hər bir yerdə turistlər üçün təəccüblü anlar mövcuddur. Bu, sadəcə, təbii gözəlliklərdən deyil, həm də səmimi və qonaqpərvər Azərbaycan insanından qaynaqlanır. Azərbaycanın qonaqpərvərlik ənənələri iordaniyalı jurnalist tərəfindən xüsusi olaraq qeyd olunur.

Məqalədə həmçinin Bakı şəhərinin müasirliyi və tarixi zənginlikləri ilə turistləri necə valeh etdiyi qeyd olunur. Fəvvarələr meydanı, İçərişəhər və Bibiheybət məscidi kimi tarixi abidələr turistlərə unudulmaz anlar yaşadır. Azərbaycan mətbəxinin zənginliyi də məqalədə diqqət mərkəzindədir. Məqalə müəllifi plov, dolma və kabab kimi yeməklərin, Azərbaycan mətbəxinin nə qədər unikal və cazibədar olduğunu vurğulayır.

N.Zubeydi "Sea Breeze" layihəsi ilə bağlı yazdığı məqaləsində isə Xəzər dənizinin sahilində həyata keçirilən bu böyük şəhərsalma nümunəsinin beynəlxalq turizm üçün necə əlverişli və cəlbedici olduğunu qeyd edir. "Sea Breeze" layihəsi ekoloji tarazlığı qorumaqla yanaşı, həm də regionun iqtisadi inkişafına mühüm töhfə verir. Layihə çərçivəsində inşa edilən müasir hotellər, istirahət kompleksləri və digər turizm obyektləri Xəzər sahilini ilin bütün fəsillərində turistlər üçün cazibədar bir məkana çevirir.

Məqalədə həmçinin bu layihənin Azərbaycanın turizm potensialını əhəmiyyətli dərəcədə artırdığı qeyd edilir. Xəzər sahilində yerləşən lüks hotel və istirahət kompleksləri turistlərə həm yayda, həm də qışda müasir şəraitdə istirahət etmə imkanı təqdim edir. "Sea Breeze" layihəsi həm də sosial və iqtisadi inkişafı dəstəkləyir.

Qeyd edilir ki, bu layihə çərçivəsində yaradılan yeni iş yerləri və turizm sektorundakı irəliləyişlər yerli əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur.